# «Yunayted Kredit Bank» Açıq Səhmdar Cəmiyyətinin
# İdarə Heyəti haqqında
# ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. İdarə Heyəti "Banklar haqqında Azərbaycan Respublikası Qanunu", Azərbaycan Milli Bankının “Banklarda korporativ idarəetmə standartlarınıln tətbiqi Qaydaları” və digər normativ-hüquqi sənədləri, __________ Səhmdar Kommersiya Bankının Nizamnaməsi və bu Əsasnamə əsasında fəaliyyət göstərir.

1.2. İdarə Heyəti bankın ali icra orqanı olaraq, bankın cari fəaliyyəti üçün məsuliyyət daşıyır.

1.3. İdarə Heyətinin fəaliyyətinə onun Sədri rəhbərlik edir və o, bilavasitə Müşahidə Şurası qarşısında hesabat verir.

## 2. İdarə Heyətinin səlahiyyət və vəzifələri

2.1. İdarə Heyəti bankın Nizamnaməsi, səhmdarların ona vermiş olduğu və bu Əsasnamədə göstərilən aşağıdakı səlahiyyətlərə malikdir:

2.1.1. bankın cari fəaliyyəti barədə qərarlar qəbul etmək;

2.1.2. bankın icra orqanlarına işçilərin seçilməsi, azad edilməsi və onlarla müqavilələr bağlamaq və onların vəzifə təlimatlarını müəyyənləşdirib təsdiq etmək;

2.1.3. bankın daşınan və daşınmaz əmlakını yenidən qiymətləndirilməsi üzrə qərar qəbul etmək;

2.1.4. bankın strategiyasının hazırlanmasında iştirak etmək;

2.1.5. kredit və zəmanətlərə görə götürülmüş əsas vəsaitlərin istifadəsi üçün balansa götürmək ya ondan istifadə prinsiplərini müəyyənləşdirmək;

2.1.6. iri kreditlər üzrə öz səlahiyyətləri daxilində qərarlar qəbul etmək;

2.1.7. səlahiyyətləri daxilində bank fəaliyyətinin daxili qaydalarını müəyyənləşdirib təsdiq etmək (Müşahidə Şurası Əsasnaməsində nəzərdə tutulan funksiyalar istisna olmaqla);

2.1.8. bankı tərəfdaşlar qarşısında təmsil etmək.

2.2. Müşahidə Şurası banka ümumi rəhbərliyi və nəzarəti həyata keçirən zaman İdarə Heyətinin cari işlərinə qarışmır. Bununla belə, Müşahidə Şurası İdarə Heyətinin qərarlarını təftiş edə bilər.

2.3. İdarə Heyəti aşağıdakı əsas vəzifələri həyata keçirir:

2.3.1. Bankın strateji planının yerinə yetirilməsini təmin edir.

2.3.2. Səhmdarların və əmanətçilərin mənafelərini, habelə bankın likvidliyini qoruyur.

2.3.3. Bankın kapitalının qorunması və onun gəlirliyini təmin edəcək fəaliyyət göstərir.

2.3.4. Səhmdarların ümumi Yığıncağının, MŞ-nın və Milli Bankın bank fəaliyyətinin tənzimlənməsi barəsindəki normativ sənədlərin tələblərini yerinə yetirir.

2.3.5. Səhmdarların ümumi Yığıncağı və Müşahidə Şurasının iclasları üçün onun tələb etdiyi sənədləri hazırlayır.

2.3.6. Bankın struktur bölmələrinin əsasnamələrini və işçilərin vəzifə təlimatlarını müəyyən edir.

2.3.7. Bankın funksional icra strukturlarının işinə nəzarəti həyata keçirir.

2.3.8. Bankın cari fəaliyyəti ilə bağlı bütün məsələləri həll edir.

2.3.9. Korporativ idarəetmə üzrə Bazel Komitəsinin tövsiyəlrini və qanunvericiliyin tələb etdiyi digər vəzifələri həyata keçirir.

2.4. İdarə Heyəti üzvləri onların səhv fəaliyyəti və ya fəaliyyətsizlikləri nəticəsində banka dəymiş zərərə görə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq, maddi və mənəvi məsuliyyət daşıyırlar.

## 3. İdarə Heyətinin formalaşması, iclasları və səlahiyyət müddəti

3.1. İdarə Heyətinin ____nəfərdən ibarət olmaqla, Səhmdarların Ümumi Yığıncağı iştirakçılarının ən azı 75%-nin iştirak etdiyi iclas tərəfindən, iclas iştirakçılarının 75% səs çoxluğu ilə seçilir.

3.2. İdarə Heyətinin üzvləri 4 il müddətinə seçilirlər. İH üzvləri təkrar da seçilə bilərlər.

3.3. İdarə Heyətinin Sədri onun üzvləri içərisindən bütün dövr üçün Səhmdarların Ümumi Yığıncağı tərəfindən seçilir. İdarə Heyəti Sədrinin müavinləri İdarə Heyətinin Sədri tərəfindən təyin olunur.

3.4. İdarə Heyətinin Sədri və üzvləri seçilərkən aşağıdakı amillər əsas götürülür:

- Sədr və üzvlərin mütləq ən azı 3 il bank və ya oxşar kredit institutunda rəhbərlik təcrübəsi:
- iqtisadi, biznes və ya hüquqi təhsilin olması;
- peşəkar bilik və təcrübə;
- menecerlik və kollektivdə işləmək qabiliyyəti;
- qarşısına qoyduğu məqsədə çatmaq qabiliyyəti;
- sahibkar kimi düşünmək və fəaliyyət göstərə bilmək qabiliyyəti;
- işə yaradıcı yanaşmaq, yeni ideyalara malik olmaq və yeni ideyaları stimullaşdıra bilmək;
- vətəndaş qüsursuzluğuna malik olmaq;

- Müşahidə Şurası və Audit Komitəsi üzvləri ilə qanunvericiliklə müəyyən olunan qohumluq əlaqələrinin olmaması;
- dəqiq planlaşma, zəngin marketinq və ciddi nəzarət etmək qabiliyyəti;
- insanlarla tez ünsiyyətə girə bilmək və s.

3.5. İdarə Heyəti üzvlərinin hamısının iştirak etdiyi iclas kvorumlu hesab olunur və qərarlar adi səs çoxluğu prinsipi ilə qəbul edilir. İclasa İdarə Heyətinin Sədri sədrlik edir.

3.6. İdarə Heyətinin plan üzrə iclasları ayda 1 dəfədən gec olmayaraq keçirilir. İdarə Heyətinin növbədənkənar iclasları onun Sədrinin təşəbbüsü və ya İdarə Heyəti üzvlərindən hər hansı birinin tələbi ilə çağırılır.

3.7. İclaslarda qərarlar açıq səsvermə ilə sadə səs çoxluğu əsasında bir nəfər= bir səs prinsipi ilə qəbul edilir. Səsvermə zamanı bitərəf qalmağa icazə verilmir. İdarə Heyətinin katibi iclasa katiblik edir və iclasın nəticələri protokolla rəsmiləşdirilir.

3.8. İdarə Heyətinin Sədri və üzvləri aşağıdakı hallarda Səhmdarların ümumi yığıncağı tərəfindən vaxtından əvvəl geri çağırılırlar:

- vəzifələrinin öhdəsindən gəlmədikdə;
- digər seçkili orqanlara seçildikdə;
- öz xahişləri ilə;
- qanunvericiliyin müəyyən etdiyi digər hallarda.

## 4. <u>Qərar qəbuletmə səlahiyyətləri</u>

4.1. İdarə Heyəti bankın cari fəaliyyəti ilə bağlı (Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurasının səlahiyyətlərinə aid olan məsələlər istisna olmaqla) hər cür qərar qəbul etmək səlahiyyəti vardır.

4.2. İdarə Heyətinin qəbul etdiyi kolleqial qərarlardan başqa, onun Sədrinin İH adından sərəncam və əmrlər vermək hüququ vardır.